# Azərbaycanın və Türkiyənin birgə həyata keçirdiyi ən mühüm layihə

## *Prezident İlham ƏLİYEV: "Əminəm ki, iki ildən sonra biz TANAP-ın açılışını qeyd edəcəyik"*

TANAP - Transanadolu Qaz Boru Kəməri Azərbaycanın və Türkiyənin birgə reallaşdırdıqları layihədir. Hazırda kəmərin çəkilişində uğurla davam edən əməkdaşlıq sayəsində Azərbaycan-Türkiyə iqtisadi əlaqələri daha da möhkəmlənir. Təsadüfi deyil ki, keçən ay Ankarada keçirilən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasında bu, bir daha vurğulanıb.



Sözügedən tədbirdə TANAP-la bağlı işlərin gedişi hər iki ölkənin dövlət başçılarının çıxışlarında, eləcə də onların mətbuata bəyanatlarında əksini tapıb. Azərbaycan Prezidenti İlham Əliyev TANAP-ın indiyədək keçdiyi yola nəzər salaraq deyib: "Enerji layihələri bizi birləşdirir. 2012-ci ildə məhz Türkiyə və Azərbaycan TANAP layihəsinə start verdi. Əgər o vaxt biz TANAP layihəsinə start verməsəydik, bu gün "Cənub qaz dəhlizi" layihəsi reallaşa bilməzdi. Bu gün bu dəhlizin icrasında Türkiyə və Azərbaycan aparıcı rol oynayır".

Xatırladaq ki, TANAP üzrə iki ölkə arasında saziş 2012-ci ilin iyun ayında imzalanıb. Keçən il martın 17-də isə Türkiyənin Qars vilayətinin Səlim rayonunda kəmərin təməli qoyulub.

TANAP-ı "Cənub qaz dəhlizi"nin onurğa sütunu da adlandırırlar. Çünki bu kəmər dəhlizin ortada yerləşən ən böyük hissəsidir. Onun bir ucu Gürcüstan-Türkiyə sərhədində Cənubi Qafqaz Boru Kəmərinə, digər ucu isə Türkiyənin Yunanıstanla sərhədindən başlanan Transadriatik Qaz Boru Kəmərinə bağlanacaq. Başqa sözlə, Azərbaycan qazını Avropaya çatdıran "Cənub qaz dəhlizi"nin yolu Türkiyədən keçəcək. TANAP qardaş ölkənin ərazisində 1850 kilometr məsafə boyu uzanacaq.

"Cənub qaz dəhlizi" ilə Xəzərin Azərbaycan sektorunda "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan ildə 16 milyard kubmetr qaz nəql ediləcək. Bu həcmin 6 milyard kubmetrini Türkiyə, 10 milyard kubmetrini Avropa ölkələri alacaq. TANAP-ın baş meneceri Saltuk Düzyolun sözlərinə görə, ilk qazın 2018-ci ildə tədarük olunacağı, 2020-ci ildən mavi yanacaq axınının başlanacağı nəzərdə tutulub. Qazın həcminin 2023-cü ildə 23 milyard kubmetrə, 2026-cı ildə isə 31 milyard kubmetrə çatacağı gözlənilir.

TANAP-ın çəkilişi problemsiz irəliləyir və tikintinin müvəffəqiyyətlə başa çatacağına şübhə yoxdur. Bu inamı indiyədək uğurla həyata keçirilən, Azərbaycanı və Türkiyəni daha sıx birləşdirən enerji layihələri yaradır.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan TANAP-ın uğurlarından məmnunluğunu ifadə edərək demişdir: "Azərbaycan ilə birlikdə həyata keçirdiyimiz ən mühüm layihə, bildiyiniz kimi, TANAP-dır. TANAP-da işlər əvvəlcədən nəzərdə tutulan plana uyğun olaraq sürətlə irəliləyir. Hətta layihənin nəzərdə tutulan müddətdən əvvəl tamamlanması üçün çalışırıq. TANAP-ın onurğa sütununu təşkil edən "Cənub qaz dəhlizi" məsələsində də bütün tərəfdaşlarla sıx əlaqədə çalışırıq".

2016-cı il "Cənub qaz dəhlizi"nin həyata keçirilməsində mühüm il olacaq. Əlbəttə, belə bir nəhəng layihədə çətinliklərin, maneələrin qarşıya çıxacağı da istisna deyil. Bu baxımdan cari ilin fevral ayında "Cənub qaz dəhlizi" Məşvərət Şurasının Bakıda keçirilən ikinci toplantısı layihənin inkişafında yeni bir mərhələyə çevrildi. Tədbir istər TANAP-ın, istərsə də bütövlükdə "Cənub qaz dəhlizi"nin bütün iştirakçılarının həmrəy və növbəti dəstəklərə hazır olduğunu nümayiş etdirdi.

Enerji təhlükəsizliyi layihələrinin, o cümlədən TANAP-ın böyük əhəmiyyəti var. Çünki enerji resurslarının ixracının şaxələndirilməsinin hər hansı ölkənin iqtisadi inkişafında əsas amillərdən olduğu şəksizdir. Bu baxımdan TANAP istər Azərbaycanın, istərsə də Türkiyənin iqtisadiyyatı qarşısında geniş imkanlar açacaq. Bu kəmər "Cənub qaz dəhlizi"nin güclü bir qolu olaraq Avropanın enerji təhlükəsizliyinə də dəstək verəcək.

Azərbaycanın enerji resurslarının təhlükəsiz şəkildə Avropaya çatdırılmasının önəmli bir məsələ olduğu indiki vaxtda TANAP daha mühüm əhəmiyyət kəsb edir. Odur ki, kəmərin tikintisinin mümkün qədər qısa vaxtda həyata keçirilməsi məqsədəuyğun sayılır. Prezident İlham Əliyevin dediyi kimi: "Biz çalışacağıq ki, bu transmilli, böyük maliyyə tələb edən layihəni vaxtında icra edək. Əminəm ki, iki ildən sonra biz TANAP layihəsinin açılışını qeyd edəcəyik".

***Flora SADIQLI,***
***"Azərbaycan"***